MƏDƏNİYYƏT DÜNYASI
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti XLVII buraxılış, Bakı, 2025
МИР КУЛЬТУРЫ
Азербайджанский государственный университет культуры и искусств, XLVII выпуск, Баку, 2025
THE WORLD OF CULTURE
Azerbaijan State University of Culture and Arts, XLVII edition, Baku, 2025

**UOT 78.087.62/.67**
**ORCID: 0000-0002-5076-5138**
**https://doi.org/10.52094/2221-7584.2025.47.0143**

**Bəyimxanım Vəliyeva**
**Sənətşünaslıq üzrə fəlsəfə doktoru, Əməkdar artist**
**Azərbaycan Milli Konservatoriyasının dosenti**
**veliyevabeyimxanim@gmail.com**

# MUĞAM İFASINDA POETİK MƏTNİN ROLU

**Xülasə:** Şərq dünyasının muğam sənəti və klassik poeziyası orta əsrlərdən bəri ayrılmaz bir zəncir olaraq yüksələrək bu günümüzə gəlib çatmışdır. Belə ki, muğam sənəti yaranan gündən poeziya, ilk növbədə qəzəl janrı ilə birgə addımlamış, avazla sözün birgə sehrini xanəndələrin səsi vasitəsilə dinləyicilərə çatdırmışdır. Məlumdur ki, Orta əsr klassik Şərq ədəbiyyatında ərəb-fars dilləri, müəyyən dövrdən etibarən isə fars dili ədəbi dil kimi üstün mövqeyə malik idi. Dahi Azərbaycan şairi Nizami Gəncəvinin farsca yazılmış zəngin irsi buna parlaq misaldır. Lakin tədricən, ustad qəzəlxanlarımızın çoxlu səyləri nəticəsində zaman-zaman qəzəllər artıq Azərbaycan türkcəsində yazılmağa başlamışdır. Ərəb dilində yaranmış əruzun türk dillərinin strukturu ilə çətinliklə uzlaşması bu dillərdə hecaların fərqli xüsusiyyətləri ilə bağlı olmuşdur.

**Açar sözlər:** qəzəl, heca, vəzn, ölçü, bəhr.

Məlumdur ki, XIV əsrdə yaşamış İzzəddin Həsənoğlunun dövrümüzə azərbaycanca yalnız 3 qəzəli gəlib çatmışdır. Həmin əsrin nümayəndəsi olmuş Qazi Bürhanəddin həm farsca, həm də azərbaycanca şeirlər yazmışdır. XIV-XV əsrlərdə yaşayıb-yaratmış İmadəddin Nəsiminin yaradıcılığında Azərbaycan türkcəsinin rolu böyük olmuşdur. Sonrakı əsrlərdə Xətai Təbrizi, Şah İsmayıl Xətainin yaradıcılığında Azərbaycan dilinin çəkisi xeyli artmış, hətta üstün olmuşdur.

Azərbaycan Səfəvi dövlətinin banisi, qızılbaş sufi təliminin yaradıcısı, "Xətai" təxəllüslü Şah İsmayıl Xətai anadilli xalq şeirinin yazılı poeziyaya nüfuz etməsində böyük xidmətlər göstərmişdir. O, başçılıq etmiş olduğu sarayda

Azərbaycan-türk dilini bərqərar etdirmiş, qələmə aldığı qəzəllərdə Azərbaycan dilinin daha çox yayılaraq məhşurlaşmasına səbəb olmuşdur:

Ol gedən yarımmıdır, ya ixtiyarımdır gedir,
Bilməzəm canımmıdır, ya suvlu yarımdır gedir.

Təndə canım qalmadı, anunla olmuşdur rəvan,
Ol mənim ruhi-rəvanım, ya nigarımdır gedir.

Canım andan ayrı təndə, bir dəm əylənməz mənim,
Ğəm məni eylər həlak, ol qəmküsarımdır gedir.

Qalmadı heç karü bari bu Xətai xəstənin,
Anın ilə karü barım hər nə varımdır gedir.

XVI əsrin klassik şairi Məhəmməd Füzuli irsi Azərbaycan və Türk ədəbiyyatının inkişafında önəmli bir mərhələni təşkil edib. Onun qəzəlləri muğam sənətinin poetik əsasında daim böyük yer tutur. Təsadüfi deyil ki, Üzeyir Hacıbəyli özünün ilk operasını – məşhur “Leyli və Məcnun” muğam operasını məhz Füzulinin eyniadlı poeması əsasında bəstələmiş, buraya şairin digər məşhur qəzəllərini də daxil etmişdir.

Muğamlarda istifadə olunan qəzəllərdən danışarkən XIX əsr Azərbaycan poeziyasında xüsusi yeri olan Seyid Əzim Şirvaninin irsi də ayrıca qeyd olunmalıdır. O, Şərq dillərini mükəmməl mənimsəmiş və həm Azərbaycan, həm də farsca əsərlər yazmışdır. Məlumdur ki, onun azərbaycanca bədii irsinin əsas hissəsini qəzəllər təşkil edir ki, onlar xanəndələrin repertuarında xüsusi yer tutmaqdadır. Keçmiş əsrlərin poetik irsinə müraciət edən xanəndələr daha çox Nizami Gəncəvi, Xaqani Şirvani, Şah İsmayıl Xətai, İmadəddin Nəsimi, Məhəmməd Füzuli, Molla Pənah Vaqif, Seyid Əzim Şirvani, Xurşud Banu Natəvanın qəzəllərindən istifadə edirdilərsə, XX əsrdə xanəndələr arasında ən çox müraciət olunan qəzəlxan şair Əliağa Vahid (1895-1965) oldu. Əliağa Vahidin qəzəlləri müasirliklə səsləşərək daha tez başa düşülən, axıcı, rəvan Azərbaycan dilində yazılmış qəzəllər olduğu üçün həm xanəndənin dilinə daha

rahat yatır, həm də dinləyici qəzəlin mənasını daha tez, aydın şəkildə başa düşmüş olurdu.

Qeyd etmək lazımdır ki, hər xanəndə ifa etmiş olduğu muğamın qəzəl seçimində sərbəstdir. Lakin buna baxmayaraq o, ifa etmiş olduğu muğamın musiqi xarakterini, aid olduğu məqamı mütləq nəzərə almalı və qəzəl seçimini də ona uyğun etməlidir. Məsələn, "Heyratı" zərbi-muğamını misal çəkmiş olsaq o, "Rast" məqamına əsaslanan, cəngavər ruhlu, insanda pozitiv abu-hava yaradan bir muğamdır. Əgər xanəndə orada nisgilli, həsrət dolu, ayrılıqdan bəhs edən bir qəzəl seçərək ifa etsə əlbəttə, dinləyici bu ifanı dinlədiyi zaman böyük bir təzadla qarşılaşacaq və bu ifa heç də xoş təsir bağışlamayacaq. Yox, əgər bu ifa üçün qəhrəmani, vətənpərvər, pozitiv ruhlu bir qəzəl seçərək ifa etmiş olarsa, o zaman bu zərbi-muğamın tam xarakterini əks etdirmiş olacaq.

Hər bir xanəndə ilk öncə əruz vəzninə düzgün formada yiyələnməlidir. Əruzun bəhrlərini bilməlidir. Çünki, ifa edilən hər bir muğam bilavasitə əruzla bağlıdır. Çox zaman məhz elə ona görə də bəzi xanəndələrin ifasında söz mətnləri aydın başa düşülmür, ifa zamanı sözlərin vurğuları düzgün qoyulmur və yaxud ifada sözlərin bölgüləri düzgün aparılmır. Əgər ifa zamanı bəhrlərdən biri qısa və ya yaxud uzun tələffüz olunsa, və yaxud təfilələrin bölgüləri, vurğuları düz ifa olunmasa bu zaman xanəndə həm qəzəlin qol-qanadını sındırmış olacaq, həm də ifa etmiş olduğu muğamı tamaşaçıya doğru-düzgün şəkildə çatdıra bilməyəcək. Məhz akademik, düzgün, savadlı, peşəkar ifaçılıq üçün qəzəliyyat ilə dərindən maraqlanmaq, əruza yaxşı yiyələnmək lazımdır.

Erkən orta əsrlərdə Xəlil İbn Əhməd və ərəb əruzçularının birgə yaratdıqları səkkiz vəzndə on əsli təfilə bunlardır: fə'Ulün, fA'ilün, məfA'İlün, fA'ilAtün, fA'i-lAtün, müstəf'ilün, müs-təf'i-lün, müfA'ələtün, mütəfA'ilün, məf'UlAtü. Hər bir xanəndə əruzdakı temporitmi təyin etmək üçün bəhrlərin adlarına, onların ölçülərinə və adlarının mənalarına dəqiqliklə yiyələnməlidir. Bu da öz növbəsində xanəndələrin doğru-düzgün şəkildə ifalarına mütləq şəkildə öz müsbət təsirini göstərəcəkdir. Beləliklə, əruz vəzninin bəhrlərini təqdim edirik:

1. Təvil bəhri – təvil sözünün ərəbcədən tərcüməsi uzun deməkdir. Ərəb əruzunun ilk bəhri Təvil bəhridir. Həmçinin bu bəhr ərəb əruzunun ən uzun bəhri hesab edilir. Bu bəhrin əsas qəlibi aşağıdakı formadadır:

fə’Ulün məfA’İlün fə’Ulün məfA’İlün
fə’Ulün məfA’İlün fə’Ulün məfA’İlün

2. Mədid bəhri – mədid bəhri ərəbcədən tərcümədə uzadılmış, sürəkli deməkdir. Bu bəhrin ərəb əruzundakı əsas qəlibi belədir:

fA’ilAtün, fA’ilün, fA’ilAtün, fA’ilün
fA’ilAtün, fA’ilün, fA’ilAtün, fA’ilün.

3. Bəsit bəhri – bəsit bəhri ərəbcədən tərcümədə sadə, geniş, yayılmış deməkdir. Bu bəhrin əsas qəlibi isə aşağıdakı formadadır:

müstəf’ilün, fA’ilün, müstəf’ilün, fA’ilün
müstəf’ilün, fA’ilün, müstəf’ilün, fA’ilün.

4. Vafir bəhri – vafir sözünün ərəbcədən hərfi mənası çox, bol, böyük deməkdir. Bu bəhrin əsas qəlibi müfA’ələtün əsli təfiləsinin altı dəfə təkrarından ibarətdir.

5. Kamil bəhri – kamil sözü ərəbcədən tərcümədə mükəmməl, təkmilləşmiş, yetkin, təcrübəli, nöqsansız, tam və s. anlamına gəlir. Bu bəhrin əsas qəlibi altı dəfə mütəfA’ilün təfiləsinin təkrarından ibarətdir.

6. Həcəz bəhri – həcəz sözünün ərəbcədən lüğəti mənası düzgün xoş avazla oxumaq, gözəl və yavaş səslə tərənnüm etməkdir. Bu bəhrin əsas qəlibi məfA’İlün əsli təfiləsinin altı dəfə təkrarından ibarətdir.

7. Rəcəz bəhri – rəcəz bəhri ərəbcədən lüğəti tərcümədə titrəyən dişi dəvə, düşmən önündə özünü və şəcərəsini öymə. Bu bəhrin də əsas qəlibi altı dəfə müstəf’ilün əsli təfiləsinin təkrarından ibarətdir.

8. Rəməl bəhri – rəməl bəhri ərəbcədən tərcümədə bir çox mənalara yozulur. Məsələn, toxumaq, hörmək, yağış səsi, dəvə yerişi, monoton şütümək səsi və s. rəməl bəhrinin əsas qəlibi fA’ilAtün əsli təfiləsinin altı dəfə təkrarından ibarətdir.

9. Səri bəhri – səri sözünün ərəbcədən hərfi mənası sürətli, tez deməkdir. Bu bəhrin əsas qəlibi belədir:

müstəf’ilün müstəf’ilün məf’UlAtü

müstəf'ilün müstəf'ilün məf'UlAtü.

10. Münsərih bəhri – münsərih sözü ərəbcədən azad, axıcı, çevik, sərbəst, sürətli, cəld və s. kimi tərcümə olunur. Bu bəhrin əsas qəlibi belədir:

müstəf'ilün məf'UlAtü müstəf'ilün
müstəf'ilün məf'UlAtü müstəf'ilün.

11. Xəfif bəhri – xəfif sözü ərəbcədən tərcümədə yüngül, oynaq, çevik, sürətli hərəkət edən deməkdir. Bu bəhrin əsas qəlibi isə aşağıdakı formadadır:

fA'ilAtün müstəf'ilün fA'ilAtün
fA'ilAtün müstəf'ilün fA'ilAtün

12. Müzare bəhri – müzare sözü ərəbcədən tərcümədə oxşar, surətcə bənzəmək mənasını verir. Bu bəhrin əsas qəlib forması isə belədir:

məfA'İlün fA'ilAtün məfA'İlün
məfA'İlün fA'ilAtün məfA'İlün

13. Müqtəzəb bəhri – müqtəzəb sözü ərəbcədən tərcümədə qısaldılmış, kəsilmiş, improvizə olunmuş deməkdir. Bu bəhrin əsas qəlib forması aşağıdakı şəkildədir:

məf'UlAtü müstəf'ilün müstəf'ilün
məf'UlAtü müstəf'ilün müstəf'ilün.

14. Müctəs bəhri – müctəs sözü ərəbcədən tərcümədə kökündən qoparılmış, çəkib çıxarmış anlamını verir. Bu bəhrin əruzda olan əsas qəlib forması belədir:

müstəf'ilün fA'ilAtün fA'ilAtün
müstəf'ilün fA'ilAtün fA'ilAtün

15. Mütəqarib bəhri – mütəqarib sözü ərəbcədən tərcümədə tədarük, yetişən, çatan, bir-birinə yaxın olan deməkdir. Bu bəhrin əruzda olan əsas qəlib forması aşağıdakı kimidir:

fə'Ulün fə'Ulün fə'Ulün fə'Ulün
fə'Ulün fə'Ulün fə'Ulün fə'Ulün.

16. Mütədarik bəhri – mütədarik sözü ərəbcədən tərcümədə hazırlayan, tədarük edən mənasını verir. Bu bəhrin əsas qəlibi isə belədir:

fA'ilün fA'ilün fA'ilün fA'ilün
fA'ilün fA'ilün fA'ilün fA'ilün

Filologiya üzrə elmlər doktoru, professor Tərlan Quliyev "Əruz və qafiyəşünaslıq tarixi" kitabında əruzla bağlı bir çox maraqlı, tarixi məqamlara toxunmuşdur: "Belə ki, ərəb əruzunu istər fars, istərsə də ümumtürk əruzundan fərqləndirən ən mühüm cəhətlərdən biri, ərəb əruzunda vəznin ölçü vahidi kimi misranın deyil, beytin qəbul edilməsidir. Başqa sözlə, konkret olaraq desək, ərəb şeirinin ölçü vahidi beytdir" [2, s. 104].

Bu tamamilə doğru bir fikirdir. Çünki, əgər xanəndə muğam ifası zamanı qəzəlin beytini bütöv olaraq səsləndirməsə, o zaman ifası natamam qalacaq. Yəni, həm qəzəldəki fikir bitkin ifadə olunmayacaq, həm də xanəndənin ifa etmiş olduğu muğam avazları natamam səslənəcək. Çünki, əruzun ölçü vahidi beytdir və beytin özü də iki misradan ibarətdir. Məhz bunun üçün də xanəndə muğam ifası zamanı qəzəlləri ifa edərkən misra şəklində deyil, beyt şəklində ifa etməlidir. "Bununla belə türkdilli əruzun özünəməxsus elmi xüsusiyyətləri olduğunu duymaq və onları nəzəri şəkildə sistemləşdirmək məsələsi də özlüyündə kiçik məsələ deyildi. Türkdilli xalqlar tarixində bu işin ilk dəfə olaraq Nəvai və Babur tərəfindən görülməsi hələ XV-XVI əsrlərdə təkcə əruzun deyil, eyni zamanda, ümumtürk filalogiya elminin müəyyən potensiala malik olmasından xəbər verir. Öz əsərlərini yazarkən, əruzun bir nəzəri sistem kimi türk dillərinə yad olduğunu hiss edən Nəvai və Babur, ilk növbədə bu problemi aradan qaldırmağa çalışmış, türk dillərini, fonetik baxımdan – qrafik nöqteyi-nəzərdən əruzun tələblərinə uyğunlaşdırmaq istəmişlər" [2, s. 208].

Musiqişünaslıq elminin daim aktual mövzularından biri xanəndələrin ifaçılıq fəaliyyətini, onların bu sənətdəki rolunu, göstərmiş olduqları xidmətləri, fərdi ifa üslublarını, metodikalarını araşdıraraq tədqiq etməkdir. Hələ orta əsrlərdə məqam və onun nəzəri məsələləri musiqi elminin ən vacib predmeti kimi araşdırılırdı. Əlbətdə ki, müasir dövrümüzdə də elmi tədqiqatçılar tərəfindən muğam sənəti və onu yaşadan sənətkarların yaradıcılığı daim aktual mövzu olaraq qələmə alınır. Bununla bahəm Azərbaycanda son zamanlar uğurla həyata keçirilən "Muğam aləmi" beynəlxalq festivalları və simpoziumları, habelə həmin simpoziumlar çərçivəsində yazılan məqalələr, eləcə də muğamların elmi-praktiki tədrisi bilavasitə muğamlarımızın inkişaf mərhələsinin bir daha bariz nümunəsidir. Çünki bunlar hər ikisi bir-biri ilə

vəhdət dəşkil edirlər. Bu füsünkar vəhdəti isə dinləyiciyə, tamaşaçıya çatdıran vasitə isə xanəndədir. Yetər ki, xanəndə öz sənətinin peşəkarı olsun. Bu sənətə dərindən yiyələnsin. Çünki, kənardan asan və bəsit görünən xanəndəlik sənəti özündə çox ağır missiyaları daşıyır. Son misramızı qısa bir şeirlə vəsf etmiş olsaq aşağıdakı misralar daha aydın səslənər:

Hər xalqın sevimli musiqisi var,
Bizim xalqa çox əzizdir, muğamat.
Hər xanəndə üzə bilməz qoynunda,
Dalğalanan bir dənizdir, muğamat!!!

Sən üsyan eyləyən Çahargaha bax!
Zabulda, segahda dərdə, aha bax!
Nadanlar nə bilsin nədir muğamat?
Qanan üçün misilsizdir, muğamat!!!

Həqiqətən şeirdə də deyildiyi kimi hər xanəndə üzə bilməz qoynunda, dalğalanan bir dənizdir muğamat!!!

## Ədəbiyyat siyahısı

1. Məmmədəliyev V. Ərəb dilçiliyi. – Bakı: 1985
2. Quliyev T. Əruz və qafiyəşünaslıq tarixi. – Bakı: 2013. s. 291
3. Vəliyeva B. Muğam dünyasının Xanı – Bakı. 2024 – s.174

**Бейимханым Велиева**

## Роль поэтического текста в исполнении мугама

### Резюме

Искусство мугама и классическая поэзия восточного мира возникли как неразрывная цепь со времен Средневековья и дошли до наших дней. Таким образом, с момента зарождения искусства мугама поэзия, в первую очередь жанр газели, шли рука об руку, передавая слушателям магию голоса и слова через голоса певцов. Известно, что в средневековой

классической восточной литературе доминирующее положение в качестве литературного языка занимали арабо-персидские языки, а с определенного периода и персидский язык. Ярким примером этого является наследие великого азербайджанского поэта Низами Гянджеви, написанное на персидском языке. Однако постепенно, в результате больших усилий наших мастеров-газелистов, газели время от времени стали писать на азербайджанском (тюркском) языке. Трудность адаптации арабоязычного эруза к строю тюркских языков была обусловлена различными особенностями слогов в этих языках.

**Ключевые слова:** газель, слог, ритм, мера, бахр

**Bayimkhanim Valiyeva**

**The Role of Poetical Text in Mugham Performance**

**Summary**

The art of mugham and classical poetry of the Eastern world have risen as an inseparable chain since the Middle Ages and have reached the present day. Thus, since the day the art of mugham emerged, poetry, first of all, has walked together with the gazal genre, conveying the combined magic of voice and word to the listeners through the voices of singers. It is known that in the classical literature of the Middle Ages, the Arabic-Persian languages, and from a certain period, the Persian language, had a superior position as a literary language. The legacy of the great Azerbaijani poet Nizami Ganjavi's zengi written in Persian is a vivid example of this. However, gradually, as a result of the great efforts of our master gazalkhans, gazals have begun to be written in Azerbaijani Turkish from time to time. The difficulty in reconciling the aruz created in Arabic with the structure of the Turkic languages was due to the different characteristics of the syllables in these languages.

**Key words:** gazal, syllable, weight, measure, behr

***Məqalələrin redaksiyaya daxilolma tarixi: 13.05.2025***
***Məqalənin çapa qəbul olunma tarixi: 20.05.2025***
***Ekspert rəyi: Ellada Hüseynova***